# MÜBARİZ KEŞİKDƏ

26 iyul 2018-ci il
Cümə axşamı

№ 29 (3393)

1933-cü ildən çıxır

www.mk.mia.gov.az

Qiyməti 40 qəpik

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI




**Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.**



# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN FRANSAYA SƏFƏRİ

Fransa Respublikasının Prezidenti Emmanuel Makronun dəvəti ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 19-da Fransaya səfərə gedib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iyulun 19-da Parisdə Fransa Beynəlxalq Əlaqələr İnstitutunun icraçı sədri Tyerri de Montbrial, "Naval" qrupunun sədri və baş direktoru Erve Giyu , "Total" şirkətinin sədri və baş icraçı direktoru Patrik Puyane, "SUEZ" qrupunun baş icraçı direktoru Jan Lui Şassod, "Airbus" şirkətinin Avrasiya üzrə vitse-prezidenti Silver Delonay, "Wilmotte & Associys Architectes" şirkətinin icraçı direktoru xanım Borina Andriye ilə görüşü olub.

Azərbaycan Prezidenti iyulun 19-da Parisdə Fransa Senatının sədri Jerar Larşe ilə görüşüb.

Dövlətimizin rəhbəri iyulun 20-də Parisdə "Thales International" şirkətinin baş vitse-prezidenti Rafael Eskinazi, "Rothschild and Co" şirkətinin Müşahidə Şurasının sədri Devid de Rotşild, "IVECO France" şirkətinin prezidenti, "IVECO Global Bus"un rəhbəri Silvan Blez, "Bouygues Travaux Publics" şirkətinin baş icraçı katibinin müavini Mark Adler, Fransanın SADE şirkətinin prezidenti Patrik Lölo ilə görüşüb.

İyulun 20-də Parisdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Fransa Milli Assambleyasının sədri Fransua de Rüji və "CIFAL" qrupunun prezidenti Jil Remi ilə görüşü olub.

Azərbaycan Prezidenti İlham Əliyevin Fransaya səfəri iyulun 20-də başa çatıb.

**Dövlətimizin başçısı iyulun 19-da Azərbaycanda icbari tibbi sığortanın tətbiqi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Ölkəmizin rəhbəri iyulun 23-də Masallı rayonunun Şatıroba-Hişkədərə-Miyanku-Kubin-Birinci Səmədxanlı-Xallıcalı-Əminli-Məmmədxanlı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Azərbaycan Prezidenti İlham Əliyev Afina yaxınlığında tüğyan edən meşə yanğınları nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar Yunanıstan Respublikasının Prezidenti Zati-aliləri cənab Prokopis Pavlopulosa başsağlığı teleqramı göndərib.**

# BİRİNCİ VİTSE-PREZİDENT MEHRİBAN ƏLİYEVA MDB ÖLKƏLƏRİNİN DAXİLİ İŞLƏR NAZİRLƏRİ ŞURASININ BAKI İCLASININ İŞTİRAKÇILARINI QƏBUL EDİB

İyulun 20-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Müstəqil Dövlətlər Birliyinin (MDB) iştirakçısı olan ölkələrin Daxili İşlər Nazirləri Şurasının Bakıda keçirilən iclasının iştirakçılarını qəbul edib.

MDB iştirakçısı olan ölkələrin Daxili İşlər Nazirləri Şurasının növbəti iclasının Azərbaycanda keçirilməsindən məmnunluğunu bildirən Birinci vitse-prezident Mehriban Əliyeva Şuranın artıq 5-ci toplantısının ölkəmizdə baş tutduğunu qeyd etdi.

Azərbaycanın MDB-nin fəal üzvlərindən biri olduğunu deyən Mehriban Əliyeva əsas vəzifənin müxtəlif



sahələrdə - ictimai-siyasi, iqtisadi, humanitar və təhlükəsizliyin təmin edilməsi sahələrində hərtərəfli əməkdaşlığı, kooperasiyanı inkişaf etdirmək olduğunu vurğuladı. Bildirdi ki, MDB Daxili İşlər Nazirləri Şurası vətəndaşların normal, dinc həyatını təmin etmək üçün çox mühüm vəzifəni həyata keçirir. "Sabitlik, ictimai asayiş, qanunun aliliyi hər bir dövlətin inkişafının əsas şərtlərindən biridir", - deyən Birinci vitse-prezident ölkəmizdə Şuranın işinə böyük əhəmiyyət verildiyini vurğuladı, Azərbaycanın regionun təhlükəsizliyinin təmin olunmasına töhfə verdiyini diqqətə çatdırdı. Ölkəmizdə cinayətkarlığın səviyyəsinin aşağı olduğunu, baş vermiş cinayətlərin çoxunun açıldığını, ağır və xüsusilə ağır cinayətlərin sayının 30 faiz azaldığını müsbət hal kimi xarakterizə edən Mehriban Əliyeva Şuranın fəaliyyətinin gələcəkdə bu meyillərin möhkəmlənməsinə öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi.

MDB iştirakçısı olan ölkələrin Daxili İşlər Nazirləri Şurasının operativ informasiya mübadiləsi, risklərin minimuma endirilməsi, mütəşəkkil cinayətkarlıqla, narkotrafik, terrorizm, ekstremizmlə birgə mübarizə üçün çox gözəl platforma olduğunu deyən Birinci vitse-prezident Mehriban Əliyeva qloballaşmanın doğurduğu yeni təhdidlər və çağırışlarla səmərəli mübarizə aparmaq üçün əməkdaşlığın zəruriliyini vurğuladı.

Birinci vitse-prezident İnterpolun baş katibi Yurgen Ştoku salamlayaraq onu bu mühüm vəzifəyə təyin olunması münasibətilə təbrik etdi. Ümidvar olduğunu bildirdi ki, İnterpol gələcəkdə də bu regionda təhlükəsizliyin təmin olunmasını dəstəkləyəcək.

Azərbaycanın Birinci vitse-prezidenti deyib: "Sizin diqqətinizi Azərbaycanın Dağlıq Qarabağ bölgəsində bir sıra xarici şirkətlərin qanunsuz iqtisadi fəaliyyəti faktlarına yönəltmək istərdim. Hazırda Azərbaycanın işğal olunmuş ərazilərində qanunsuz iqtisadi fəaliyyət həyata keçirən 177 xarici hüquqi şəxs aşkar edilib. Bununla yanaşı, 710 xarici vətəndaş işğal olunmuş ərazilərə gəlib. Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir, ölkəmizin ərazi bütövlüyünü bütün dünya tanıyıb. Buna görə də bu cür pozuntular, bu cür hərəkətlər Azərbaycan qanunvericiliyinin kobud şəkildə pozulması deməkdir. Bununla yanaşı, son illərdə bu ərazilərdən narkotiklərin becərilməsi və sonradan trafiki üçün istifadə olunması faktları mövcuddur. Bu da sözsüz ki, böyük narahatlıq doğurur. İstər xarici şirkətlər tərəfindən, istərsə də ayrı-ayrı şəxslər tərəfindən bu cür hərəkətlər Azərbaycan qanunvericiliyinin kobud şəkildə pozulmasıdır və bizim dövlətimiz həmin hərəkətlərin dayandırılması və qarşısının alınması üçün bütün qanuni tədbirləri görür və gələcəkdə də görəcək. Əlbəttə, bu cəhətdən biz İnterpolun dəstəyinə çox bel bağlayırıq. Mən bir daha təcrübənizi bölüşdüyünüzə, bizim birgə işimizə görə təşəkkür etmək istəyirəm və əminəm ki, gələcəkdə uğurlu əməkdaşlığımızı davam etdirəcəyik".

Birinci vitse-prezident Mehriban Əliyeva bir daha Azərbaycanın MDB iştirakçısı olan ölkələrin Daxili İşlər Nazirləri Şurasının işini yüksək qiymətləndirdiyini dedi və Şuranın işinə uğurlar arzuladı.

Rusiyanın daxili işlər naziri, MDB iştirakçısı olan ölkələrin Daxili İşlər Nazirləri Şurasının sədri Vladimir Kolokoltsev Şuranın budəfəki iclasında bir çox vacib məsələlərin müzakirə olunacağını və mühüm qərarların qəbul ediləcəyini bildirdi. Vladimir Kolokoltsev birgə səylərin əhəmiyyətini vurğulayaraq qəbul edilən qərarların vətəndaşların təhlükəsizliyinin təmin olunmasına yönəldiyini diqqətə çatdırdı.

# MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİNİN İŞTİRAKÇISI OLAN DÖVLƏTLƏRİN DAXİLİ İŞLƏR NAZİRLƏRİ ŞURASININ İCLASININ İŞTİRAKÇILARINA

*Hörmətli iclas iştirakçıları!*

*Sizi Azərbaycanda salamlayır və Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Daxili İşlər Nazirləri Şurasının növbəti iclasının işində uğurlar arzulayıram.*

*Bu formatda iyirmi beş ildən artıq həyata keçirilən əməkdaşlıq müasir dövrdə beynəlxalq terrorçuluğun və transmilli mütəşəkkil cinayətkarlığın digər formalarının doğurduğu çağırış və təhdidlərə qarşı kollektiv mübarizənin səmərəliliyinin bariz nümunəsidir.*

*Ötən illər ərzində Daxili İşlər Nazirləri Şurası ictimai təhlükəsizliyin təmin edilməsi və cinayətkarlığa qarşı mübarizənin bütün istiqamətlərində mühüm işlər görmüş və qarşılıqlı fəaliyyəti təmin etmişdir. Bunun nəticəsində əməkdaşlıq potensialı, məlumat mübadiləsi və birgə tədbirlərin keçirilməsinin effektivliyi əhəmiyyətli dərəcədə artmışdır.*

*Müasir dövrdə qloballaşma şəraitində ayrı-ayrı ölkələrin, regionların və bütövlükdə dünyanın təhlükəsizliyinə təhdidlər artmaqda davam edir, bu təhdidlərin həyata keçirilmə forma və üsulları isə daha da mürəkkəb və təhlükəli xarakter alır. Bununla əlaqədar olaraq daxili işlər orqanları daim qabaqlayıcı tədbirlər görməyə və vəziyyətə adekvat reaksiya verməyə hazır olmalıdırlar.*

*Bu məsələlərdə müvafiq beynəlxalq qurumlar, xüsusilə Azərbaycanın uğurla əməkdaşlıq etdiyi Beynəlxalq Kriminal Polis Təşkilatı – İnterpol xətti ilə əlaqələr olduqca vacibdir. Biz bu nüfuzlu beynəlxalq təşkilatın milli və beynəlxalq təhlükəsizliyin təmin edilməsi ilə bağlı informasiya və texniki dəstəyini yüksək qiymətləndiririk.*

*Daxili İşlər Nazirləri Şurasının hazırkı iclasının Azərbaycan Xalq Cümhuriyyətinin, habelə Azərbaycan Polisinin 100 illiyinin qeyd olunduğu ilə təsadüf etməsi əlamətdar haldır. Bu gün Azərbaycan, bünövrəsi ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş siyasətə uyğun olaraq, güclü, müstəqil, demokratik və hüquqi dövlət kimi inkişaf etməkdədir. Daxili işlər orqanları ölkəmizdə sabitliyin və qanunçuluğun təmin edilməsinə mühüm töhfə verir, beynəlxalq terrorçuluğa və dini ekstremizmə qarşı ciddi mübarizə aparırlar. Bu işdə MDB iştirakçısı olan dövlətlərin tərəfdaş təşkilatları ilə əməkdaşlığın gücləndirilməsi böyük əhəmiyyət kəsb edir.*

*Əminəm ki, Daxili İşlər Nazirləri Şurasının iclası çərçivəsində məhsuldar fikir mübadiləsinin aparılması ölkələrimizin rifahı naminə mövcud əməkdaşlığın daha da möhkəmlənməsinə əlavə təkan verəcəkdir.*

*İlham Əliyev,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 20 iyul 2018-ci il.*

# DİN MƏTBUAT XİDMƏTİNİN MƏLUMATI

**2018-ci il iyul ayının 20-də Bakı şəhərində Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Daxili İşlər Nazirləri Şurasının növbəti iclası keçirilib.**




İclasda Belarus, Qazaxıstan, Qırğız, Moldova, Tacikistan, Özbəkistan respublikalarının, Türkmənistan və Rusiya Federasiyası Daxili İşlər nazirliklərinin, MDB-nin İcraiyyə Komitəsinin, Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin ərazisində mütəşəkkil cinayətkarlıqla mübarizənin əlaqələndirilməsi üzrə Büronun, Beynəlxalq Kriminal Polis Təşkilatı – İnterpolun, BMT-nin narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə mübarizə üzrə Mərkəzi Asiya regional qurumunun rəhbərləri və nümayəndə heyətləri iştirak ediblər.




Qonaqlar əvvəlcə Fəxri xiyabana gedərək ümummilli lider Heydər Əliyevin abidəsi önünə əklil qoyub, xatirəsini ehtiramla yad ediblər. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarı üstünə də tər çiçəklər qoyulub.

Nümayəndə heyətlərinin rəhbərlərini Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva qəbul edib. Birinci vitse-prezident respublikanın ictimai-siyasi həyatının müxtəlif sahələrində aparılan islahatları və əldə olunmuş nailiyyətləri qonaqların diqqətinə çatdırıb, həmçinin Şuranın işini yüksək qiymətləndirərək fəaliyyətində uğurlar arzulayıb.

Həmin gün MDB-nin iştirakçısı olan dövlətlərin Daxili İşlər Nazirləri Şurasının iclası öz işinə başlayıb.

Tədbiri giriş sözü ilə açan Şuranın sədri, Tacikistan Respublikasının daxili işlər naziri, milis general-polkovniki Ramazon Raximzoda bu quruma rəhbərlik etdiyi bir il ərzində görülən işlər barədə məlumat verib.

MDB-nin iştirakçısı olan dövlətlərin Daxili İşlər Nazirləri Şurası haqqında Əsasnaməyə müvafiq olaraq Şuraya sədrlik Azərbaycan Respublikasının daxili işlər nazirinə həvalə olunub.

Sonra Azərbaycan Respublikası Prezidentinin Hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov Prezident İlham Əliyevin tapşırığına əsasən Dövlət Başçısının iclasın iştirakçılarına ünvanladığı müraciəti səsləndirib. O, Şuranın üzv dövlətlərin ərazisində cinayətkarlığa qarşı mübarizədə davamlı səylərini, əldə etdiyi müsbət nəticələri, eyni zamanda hər bir ölkənin təhlükəsizliyi baxımından böyük və əhəmiyyətli işini xüsusi vurğulayaraq fəaliyyətində yeni nailiyyətlər arzulayıb.

Şuraya sədrlik edən Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubov cari il sentyabrın 24-də Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin ərazisində mütəşəkkil cinayətkarlıq və cinayətlərin digər təhlükəli növləri ilə mübarizənin əlaqələndirilməsi üzrə Büronun yaranmasının 25 illiyinin tamam olacağını diqqətə çatdıraraq bu yubiley münasibətilə həmin qurumun rəhbərliyini və əməkdaşlarını təbrik edib, onlara uğurlar arzulayıb.

Şuranın iclasında MDB-nin İcraiyyə Komitəsinin Departament direktoru, general-leytenant Albert Drujinin, İnterpolun Baş katibi Yurgen Ştok çıxış ediblər.

İclasın gündəliyində MDB-nin iştirakçısı olan dövlətlərin Daxili İşlər nazirliklərinin əməkdaşlığının prioritet məsələləri və cinayətkarlıqla mübarizədə dövlətlərarası proqramların icrasının, terrorçu qruplaşmaların tərkibində silahlı münaqişələrdə iştirak edən şəxslərlə bağlı məlumat mübadiləsinin vəziyyəti, üzv dövlətlərin ərazisində kibercinayətlərin qarşısının alınmasında razılaşdırılmış hərəkət mexanizmləri, bu sahə üzrə ixtisaslı kadrların hazırlanması, elmi-praktik konfransların keçirilməsi və digər aktual məsələlər olub.

Bu istiqamətlər üzrə öz çıxışında ölkəmizin mövqeyini ifadə edən nazir Ramil Usubov cinayətkarlıqla mübarizənin aktual problemlərinə dair mütəmadi keçirilən belə görüşlərin müasir çağırış və təhdidlərin qarşısının alınmasında mühüm rolunu vurğulayıb. Respublikadakı kriminogen durum, həyata keçirilən tədbirlər barədə də iştirakçılara məlumat verib və bildirib ki, cinayətkarlığın qarşısının alınması və açılması işinin effektiv təşkili, ictimai asayişin və təhlükəsizliyin etibarlı təmini ölkələrimizin və xalqlarımızın mənafeyinə xidmət edir. Bu məqsədlərə çatmaq üçün birgə səylər daha da gücləndirilməli, məqsədyönlü və davamlı olmalıdır.

Nümayəndə heyətlərinin rəhbərləri gündəlikdəki məsələlər ətrafında geniş fikir mübadiləsi aparıblar. Qeyd olunub ki, üzv dövlətlərin Daxili İşlər nazirliklərinin səmərəli əməkdaşlıq əlaqələrinin nəticəsi olaraq hər il ictimai rezonans doğuran yüzlərlə cinayət açılır, transsərhəd kriminal birliklər, o cümlədən ekstremist yönümlü cinayətkar qrup və dəstələr zərərsizləşdirilir, onlarla təhlükəli cinayətkar tutularaq ekstradisiya olunur. Bu istiqamətlərdə birgə razılaşdırılmış fəaliyyətin təşkilində və həyata keçirilməsində isə cinayətkarlıqla mübarizəyə, narkotiklərin qanunsuz dövriyyəsinə, terrorçuluq və ekstremizmin digər zorakı təzahürlərinə, qeyri-qanuni miqrasiyaya, insan alverinə qarşı dövlətlərarası proqramlar xüsusi yer tutur.



Dostluq və konstruktiv əməkdaşlıq şəraitində keçən toplantıda planlaşdırılan bütün məsələlər üzrə qərarlar qəbul edilib, eləcə də Şuranın növbəti iclasının gələn il Özbəkistanın paytaxtı Daşkənd şəhərində keçirilməsi təsdiqlənib.

Daha sonra iclas iştirakçılarının "Azərbaycan Polisinin 100 illiyi (1918-2018)" yubiley medalı ilə təltif olunmasına dair Azərbaycan Respublikası daxili işlər nazirinin əmri elan olunub və general-polkovnik Ramil Usubov mükafatları təqdim edib.

İştirakçılar Şuranın iclasının işinə verdiyi ali qiymətə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə, habelə tədbirin yüksək səviyyədə təşkilinə və səmimi qonaqpərvərliyə görə Daxili İşlər Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Sonda keçirilən mətbuat konfransında nümayəndə heyətlərinin rəhbərləri jurnalistləri maraqlandıran sualları cavablandırıblar.

*20 iyul 2018-ci il.*

# BİRİ VARDI, BİRİ YOXDU...

**Qarabağ… Havası, suyu, təbiəti və gözəlliyi ilə hər kəsin zövqünü oxşayan, mənəvi olaraq bizi yaşadan məkan… Qarabağ həm də bizim ürəyimizi dağlayan yaradır...**

Qarabağ adı gələndə kimi kədərlənir, kimi də gəncliyini və uşaqlığını xatırlayır. Bu gün Qarabağımız - Şuşa, Xocalı, Laçın, Ağdam, Ağdərə... kimi gözəl rayonlarımız düşmən tapdağı altındadır.

Ağdamın, elə bütün Azərbaycanın 23 iyul 1993-cü il tarixi qara hərflərlə yazıldı. Az qala 5 il düşmənə müqavimət göstərmiş Ağdam işğal olundu.

O, həmişə cərəyan edən hadisələrin mərkəzində olmuşdur. O, 1988-ci il fevralın 22-də ilk şəhid verən və bu günə qədər 6 mindən çox oğul itirən, 16 Milli Qəhrəmanı olan Azərbaycan rayonudur.

Artıq iyirmi beş ildir ki, biz Ağdamsız yaşayırıq.

Təəssüflər olsun ki, mən də Ağdamı görməmişəm. Onun haqqında böyüklərdən, onların danışdıqlarından öyrənmişəm. Ancaq bu gün Qarabağdan didərgin düşən insanların, xüsusən də ağdamlıların necə Vətən həsrəti ilə yandıqlarını görürəm. Doğulduğu torpaqdan ayrı düşən, illərlə həsrətə boy verməsi dünyanın ən böyük faciəsidir.

İşğal olunmuş torpaqlarımızın düşmən torpağından azad olunacağı günü səbirsizliklə gözləyirik. Bu hər bir azərbaycanlının arzusudur.

Artıq biz güclüyük, müstəqil dövlətimiz var, qüdrətli orduya, yenilməz iradəyə sahibik. Müharibəyə də, mübarizəyə də həm gücümüz, həm də cəsarətimiz var. Düşmənimiz bizdən qorxsun! Qorxsun, çünki biz Vətən parçasını heç kəsə hədiyyə etməyəcəyik!

Dərdi sinəmizdə dağa dönən Ağdamımızın qaralan damlarının bəxti yenidən ağaracaq. Böyük qayıdışımızın şahidi olan Cocuq Mərcanlımız kimi ora da tikilib, qurulacaq və abadlaşacaq. Bax, o gün Ağdamdan havalanan «Qarabağ şikəstəsi» Şuşa dağlarında əks-səda verəcək…

***Ruhiyyə Əliyeva, polis leytenantı***

# MÜBARİZ KEŞİKDƏ DƏYANƏTLİDİR

**Əvvəli ötən sayımızda.**

**Danılmaz həqiqətdir ki, respublikamızın ictimai-siyasi sabitlik şəraitində inkişafında, ictimai asayişin qorunmasında, cinayətkarlığa qarşı mübarizənin səmərəli təşkilində, dövlətçiliyin hər cür cinayətkar qəsdlərdən müdafiəsində, vətəndaşların təhlükəsiz yaşamaq kimi fundamental hüququnun təminatında Daxili İşlər Nazirliyinin və onun ayrı-ayrı strukturlarının müstəsna rolu vardır. Cinayətkarlığın bütün forma və təzahürlərinə qarşı barışmaz mövqe tutan daxili işlər orqanları qanunla üzərinə düşən vəzifələri yerinə yetirməklə, iqtisadi inkişafın mühüm şərti olan sabitliyin təminatı üçün bütün zəruri tədbirləri həyata keçirməklə xalqın və dövlətin sadiq keşikçisinə çevrilmiş, ictimai etimad qazanmışlar.**

Dövlət başçısı cənab İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, bu gün DİN-in və onun ayrı-ayrı strukturlarının qarşısında duran ən başlıca vəzifə, şübhəsiz, ölkədəki dinamik inkişafa yol açan ictimai-siyasi sabitliyi qorumaq, dövlətçiliyə qarşı yönələn cinayətkar qəsdlərə qarşı barışmaz mövqe tutmaqdır.

Ümumilikdə daxili işlər orqanlarının şəxsi heyəti ölkədə aparılan quruculuq prosesində fəal iştirak edərək dövlətin, hüquqi, fiziki şəxslərin qanuni mənafelərinin, mülkiyyətinin hüquqazidd əməllərdən qorunması, insanların azad, sərbəst yaşaması üçün üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışır. Bu gün hər bir vətəndaş əmin ola bilər ki, Azərbaycan Polisi onun həyat və sağlamlığının, hüquq və azadlıqlarının, qanuni mənafelərinin, ictimai asayişinin keşiyindədir. Azərbaycan Polisi hər zaman dövlətimizin diqqət və etimadını hiss edir, fəaliyyətinə verilən yüksək qiyməti böyük minnətdarlıqla qarşılayır, habelə xalqımıza ən müxtəlif sahələrdə xidmət göstərməkdən böyük qürur duyur.

Bu bir həqiqətdir ki, inkişaf edən dövlətlərdə asayiş keşikçilərinin daha nüfuzlu qüvvəyə çevrilməsi, qanunçuluğu daha etibarlı qoruması üçün yeni-yeni qanun və qərarlar qəbul edilir, islahatlar həyata keçirilir. Hüquqi demokratik dövlətlərdə polisin xidmət səviyyəsinin təkmilləşməsi sosial sifarişdir və dövlət siyasətindən irəli gəlir. Amma daxili təhlükəsizliyin sabit olduğu, kriminal durumun nəzarət altında olduğu cəmiyyətlərdə də, polis peşəsi çətin və şərəfli olaraq qalır.

Bu gün cinayətlərin qarşısının alınması, açılması, istintaqı, cinayətkarların axtarışı, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi, yol hərəkəti təhlükəsizliyinin etibarlı təşkilindən qaynaqlanır. Ölkəmizdə vətəndaşların təhlükəsizliyinin təmin edilməsi istiqamətində görülən işləri beynəlxalq təşkilatlar, dünya dövlətləri də yüksək dəyərləndirir. Buna görə də ölkəmiz çoxsaylı beynəlxalq tədbirlərə, forumlara, konfranslara ev sahibliyi etməklə, dünyada tolerantlıq məkanı, dözümlülük, multikulturalizm mərkəzi kimi tanınır. Təbii ki, qazanılan bu uğurlarda çətin və şərəfli xidmət aparan bütün hüquq-mühafizə orqanları ilə yanaşı Azərbaycan Polisinin öz imzası var.

***Könül Nəbizadə, Sabunçu RPİ-nin əməkdaşı***

# MƏQSƏD QANUNUN ALİLİYİNİ QORUMAQDIR

**Bakı Şəhər Baş Polis İdarəsinin 2018-ci ilin 6 ayı ərzində cinayətkarlıqla mübarizədə, eləcə də ictimai asayişin qorunmasındakı əldə etdiyi nəticələrlə tanış olanda Qaradağ Rayon Polis İdarəsinin şəxsi heyətinin ilk sırada olduğunu gördüm. Bununla oxucularımızı da tanış etmək üçün idarənin rəisi, polis polkovniki Əli İbrahimovla görüşmək qərarına gəldim.**

Ona ilk sualım da belə oldu:

***-Əldə etdiyiniz müsbət nəticələrə necə nail oldunuz?***

***-Hər bir əməkdaş öz vəzifəsini bilir və işinə can yandırır. Bir də ki, qarşıya qoyulan vəzifə aydındır. Şəxsi heyətin potensialını, üstəlik, yaradılan ən gözəl imkanları və şəraiti bu vəzifələrin icrasına yönəltmək, nəzarəti və tələbkarlığı artırmaq kifayətdir…***

Keçək əsas məsələyə. İdarə rəisi dedi ki, geridə qoyduğumuz müddət ərzində DİN və prokurorluq üzrə 296 cinayət qeydə alınıb, açılması 90.9 faiz təmin olunub. Ötən ilin müvafiq dövrü ilə müqayisədə cinayətlər 40 fakt azalmış, açılması 7.3 faiz yaxşılaşmışdır. Ağır və xüsusilə ağır cinayət 8 fakt azalaraq açılması 87.5, qeyri-aşkar şəraitdə baş verənlərin isə 84.7 faiz olmuşdur. Bu həm respublika, həm də şəhər göstəricisindən yüksəkdir. Şəxsiyyət əleyhinə törədilən cinayətlərin 98.6 faizinin üstünü açmaq mümkün olmuşdur. Qəsdən adam öldürmə, qəsdən adam öldürməyə cəhd, qəsdən sağlamlığa az ağır zərər vurma, qəsdən sağlamlığa



yüngül zərər vurma, soyğunçuluq, avtonəqliyyatın qaçırılması, dövlət və bələdiyyə əmlakı oğurluğu kimi cinayətlərin açılması 100 faiz təmin olunmuşdur.

Qeyd olundu ki, mülkiyyət əleyhinə keçən illə müqayisədə 64 fakt az-126 cinayət törədilmiş, açılması 84,7 faiz olmuşdur. Əməliyyat yolu ilə 3 odlu silah, həmçinin 1 "Makarov", 1 "TT", 1 "Naqan" tipli tapança götürülmüşdür. Narkotiklə bağlı 35 fakt aşkarlanmış, açılması 96,8 faiz olmuşdur. Qanunsuz dövriyyədən 19 kiloqramdan çox narkotik vasitə çıxarılmışdır ki, 2,5 kiloqramı güclü təsiredici maddə olan heroindir.

Öyrəndik ki, axtarışda olan 73 nəfər təqsirləndirilən şəxsdən 50-si tutulmuş, xəbərsiz itkin düşmüş 13 nəfərdən 8-nin yeri müəyyən edilmişdir.

Ayrı-ayrı xidmət sahələrinin işindən danışan polis polkovniki Əli İbrahimov qazanılmış uğurda İstintaq şöbəsinin mühüm payı olduğunu dedi. Öyrəndik ki, ötən dövr ərzində şöbə tərəfindən 337 cinayət işinin istintaqı aparılmış, 176 şəxs barəsində 133 cinayət işinin istintaqı tamamlanaraq məhkəməyə göndərilmişdir. Vətəndaşlara dəymiş maddi zərərin 91,3 faizi ödənilmişdir. Şöbə əməkdaşları tərəfindən istintaqı aparılan cinayət işlərində heç bir müddət pozuntusu olmayıb. Bu da idarəyə daxil olan vətəndaş müraciətlərindən aydın görünür.

***Çingiz Şıxverdiyev, polis polkovnik-leytenantı***

# POLİSƏ TƏŞƏKKÜR ETDİ

**DİN-in "102 Zəng Mərkəzi" Xidmətinə Yasamal rayonu ərazisində avtomobildən oğurluq edilməsi barədə müraciət daxil olub.**

Məlumatla əlaqədar dərhal hadisə yerinə gələn Yasamal RPİ 29-cu Polis Şöbəsinin əməkdaşları tərəfindən müvafiq tədbirlər həyata keçirilib. Məlum olub ki, A.M.Şərifzadə küçəsində Bakı şəhər sakini Saleh Bağırova məxsus "KİA" markalı avtomobildən şüşəni sındırmaq yolu ilə içərisində şəxsiyyət vəsiqəsi və avtomobilin sənədləri olan çanta oğurlanıb.

Dərhal əməliyyat-axtarış tədbirlərinə başlayan polis əməkdaşları oğurluğu törətməkdə şübhəli bilinən şəxsi qısa zamanda müəyyən edib və həmin şəxs "isti izlər"lə saxlanılıb. Araşdırmalarla onun Ağcabədi rayon sakini, əvvəllər məhkum olunmuş Vüqar Babayev olduğu məlum olub. Şəxsi axtarış zamanı ondan narkotik vasitə olan heroin də aşkar edilərək götürülüb.

Faktla bağlı cinayət işi başlanılıb.

Qeyd edək ki, zərərçəkmiş İTV-nin aparıcısı Saleh Bağırovdur. O, baş vermiş cinayətin üstünün açılması barədə DİN Mətbuat Xidmətinin yaydığı xəbər barədə "İnstaqram" səhifəsində yazaraq polisə minnətdarlıq edib.

# DİN VƏ ETSN BİRGƏ REYDLƏR KEÇİRİB

Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsi Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə Xəzər dənizinin sahil zolağında sanitar-gigiyena qaydalarına riayət edilməsi sahəsində nəzarətin gücləndirilməsinə dair Tədbirlər Planına uyğun olaraq Xaçmaz rayonu ərazisində reydlər keçiriblər. Reydlər zamanı İnzibati Xətalar Məcəlləsinin 271-ci (sənaye və məişət tullantılarının qalaqlanması və yandırılması zamanı ətraf mühitin mühafizəsi tələblərinə əməl edilməməsi) və 264-cü (su obyektlərinin mühafizəsi qaydalarının pozulması) maddələrinin tələblərini pozmuş 12 fiziki və 1 hüquqi şəxs müəyyən edilərək inzibati məsuliyyətə cəlb edilib. Onlara tətbiq olunan cərimələrin məbləği 9.400 manat təşkil edib.

Ümumilikdə cari ilin 6 ayı ərzində şəhər, rayon polis orqanları tərəfindən həyata keçirilən belə tədbirlər nəticəsində İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələrinin tələblərini pozan 493 fiziki, hüquqi və vəzifəli şəxs müəyyən edilərək inzibati məsuliyyətə cəlb edilib, onlara ümumilikdə 37.950 manat cərimə tətbiq olunub.

Bu istiqamətdə tədbirlər davam etdirilir.

*Natiq Cavadov,*
*polis kapitanı*

# UĞURLAR DAHA DA ARTIRILACAQ

**"Hesabat dövründə RPİ-nin əməkdaşları Daxili İşlər Nazirliyinin və Bakı Şəhər BPİ-nin əmr və göstərişlərini rəhbər tutaraq xidməti ərazidə ictimai təhlükəsizliyi təmin etmiş, cinayətkarlığa qarşı mübarizədə, onun profilaktikası və qarşısının alınması istiqamətində müəyyən səmərəli tədbirlər təşkil edilərək həyata keçirmişlər".**

Bu sözləri ilin ilk 6 ayında görülmüş işlərin müzakirəsinə həsr olunmuş geniş əməliyyat müşavirəsini açan RPİ-nin rəisi, polis polkovniki İsfəndiyar Mehbalıyev bildirmişdir. Məruzə ilə əməliyyat işləri üzrə rəis müavini, polis polkovnik-leytenantı Habil Həsənov çıxış etmişdir.

Qeyd olunmuşdur ki, idarənin xidməti ərazisində 468 cinayət qeydə alınmış, bunlardan 332-nin açılması təmin edilmiş, açılma 7.2 faiz yaxşılaşaraq, 80,4 faiz olmuşdur. 2017-ci ilin müvafiq dövrü ərzində 579 cinayət baş vermiş, 327-i açılmış, açılma 73,2 faiz olmuşdur. Cinayətlərin 59-u ağır və xüsusilə ağır olmaqla açılması 80,7 faiz təmin edilmişdir. Bu, 2017-ci il göstəricisindən 10,3 faiz yaxşıdır. Qeyri-aşkar şəraitdə baş vermiş 210 cinayətdən 121-i, az ağır 298 cinayətdən 210-nu açılmışdır. Böyük ictimai təhlükə törətməyən cinayətlərin sayı 230-dan 219-dək, şəxsiyyət əleyhinə olanların sayı 110-dan 97-dək azalmışdır. Böyük ictimai təhlükə törətməyən cinayətlərin açılması 86,8 faiz olmuşdur. Qeydə alınmış 251 mülkiyyət əleyhinə cinayətdən 186-nın, dələduzluqla bağlı 108 cinayətin açılması təmin edilmişdir.

Məruzəçi bildirmişdir ki, hesabat dövrü ərzində rayon ərazisində qeydə alınmış qəsdən adam öldürmə, adam öldürməyə cəhd, qəsdən sağlamlığa ağır zərər vurma, qəsdən sağlamlığa az ağır zərər vurma, quldurluq, avtonəqliyyatın qaçırılması, hədə-qorxu ilə tələb etmə, dövlət və bələdiyyə əmlakını talama, fahişəliyə cəlb etmə və əxlaqsız yuva saxlama cinayətlərinin açılması yüz faiz təmin edilərək şəhər göstəricilərindən yüksək olmuşdur. Həmçinin 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə bu ilin 6 ayı ərzində keçirilmiş məqsədyönlü əməliyyat-axtarış və istintaq tədbirləri nəticəsində mənimsəmə və israf etmə 50, avtonəqliyyat qaçırılması 60, iqtisadi fəaliyyət sahəsində 40 faiz yaxşılaşmaqla cinayətin açılması yüz faiz olmuşdur. Soyğunçuluq cinayətinin açılması 31,2 faiz artmaqla 85,7, narkotik vasitələrlə bağlı olanlar 93,2 faiz açılmışdır. Bu göstərici də şəhərin nəticələrindən yüksəkdir.

Qeyd olunmuşdur ki, 11 nəfərdən ibarət 5 cinayətkar qrup ifşa olunmuş, ağır və xüsusi ilə ağır cinayət törətdiyinə görə axtarılan 16 təqsirləndirilən şəxs yaxalanmış, xəbərsiz itkin düşənlərdən 10-u tapılmışdır. Əməliyyat yolu ilə 2 ədəd «Makarov», 1 «Naqan» tipli tapança, «Toz-8» tipli silah aşkar edilərək götürülmüşdür.

Narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə əlaqədar hesabat dövrü ərzində 63 fakt aşkar edilmişdir. Onlardan 15 fakt narkotiklərin qanunsuz satışı, 48 fakt saxlanılması olmuşdur. Məsuliyyətə cəlb olunmuş şəxslərdən çəkisi 27 kiloqram 997.308 qram müxtəlif növ narkotik maddələr götürülmüşdür. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 4 kiloqram 889.865 qram çoxdur. Götürülmüş narkotik vasitələrdən 4 kiloqram 286.201qramı güclü təsiredici narkotik vasitələrdir.

Dövlət Yol Polisi Şöbəsi əməkdaşları tərəfindən 10298 qayda pozuntusu aşkar edilmişdir. Onlardan 4511-i kobud qayda pozuntusudur. Ötən dövr ərzində 81 sərxoş sürücü, 8 avtoxuliqan, 23 sürücülük vəsiqəsi olmadan avtomaşını idarə edən şəxs aşkarlanmışdır. Tərtib edilmiş inzibati protokolların cərimələrini müəyyən edilmiş müddətdə ödəməyən 721 sürücüyə İXM-nin müvafiq maddəsinə əsasən, inzibati protokol tərtib edilərək aidiyyatı üzrə rayon məhkəməsinə göndərilmişdir. Onlardan 103 nəfərinin sürücülük hüququ 6 aydan 1 ilə qədər məhdudlaşdırılmışdır.

Vətəndaşların müraciətlərinə baxılması və onların qəbulu idarə rəhbərliyinin diqqətində olmuşdur. Şəxsi heyətin peşə və fiziki hazırlığının yüksəldilməsi istiqamətində konkret tədbirlər görülmüşdür.

Müzakirələrdə şöbə və bölmə rəisləri çıxış edərək görülmüş işlərdən və xidmət zamanı buraxılan nöqsanlardan danışmış, onların növbəti hesabat dövründə aradan qaldıracaqlarına dair söz vermişlər.

Əməliyyat müşavirəsinə yekun vuran polis polkovniki İsfəndiyar Mehbalıyev DİN və Bakı Şəhər Baş Polis İdarəsi rəhbərliyini əmin etmişdir ki, cinayətkarlığa qarşı mübarizə, ictimai təhlükəsizliyin təmini, rayon ərazisində kriminogen durumun nəzarətdə saxlanılması, insan hüquq və azadlıqların qorunması sahəsində görülən tədbirlər davam etdiriləcək.

*Ç.Şıxverdiyev,*
*polis polkovnik-leytenantı*

# E L A N

## AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ AŞAĞIDA GÖSTƏRİLƏN POLİS ORQANLARINDA VAKANT POST-PATRUL XİDMƏTİNİN POLİS NƏFƏRİ (KİÇİK RƏİS HEYƏTİ) VƏZİFƏLƏRİNDƏ XİDMƏTƏ QƏBULLA ƏLAQƏDAR MÜSABİQƏ ELAN EDİR:

Bakı Şəhər Baş Polis İdarəsinin tabeli orqanlarında (24), Gəncə Şəhər Baş Polis İdarəsində (3), Astara (1), Ağdam (1), Ağcabədi (4), Ağstafa (2), Balakən (1), Daşkəsən (1), Yevlax (2), Lerik (1), Salyan (2), Siyəzən (3), Tovuz (1), Xaçmaz (1), Xocalı (1), Goranboy (1), Gədəbəy (1) və Şəki (1) şəhər, rayon polis şöbələrində;

51 vakant vəzifənin komplektləşdirilməsi məqsədilə 2018-ci ilin avqust ayının 15-dək Bakı şəhəri Nobel prospekti 69 ünvanında yerləşən Əlahiddə Çevik Polis Alayında keçirilməsi nəzərdə tutulan sıra baxışında ali və ya orta-ixtisas, yaxud tam orta təhsilli, yaşı 20-dən 25-dək, boyu 180 santimetrdən hündür, idman cüssəli, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş, özü və yaxın qohumları məhkum olunmamış, yalnız vakant vəzifələr göstərilən şəhər, rayonlarda yaşayış yeri üzrə daimi qeydiyyatda olan və «Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə» ilə müəyyən edilmiş şərtlərə cavab verən, Azərbaycan Respublikasının kişi vətəndaşları iştirak edə bilərlər.

Müsabiqədə iştirak etmək istəyən şəxslər 2018-ci ilin avqust ayının 10-dək hər gün (istirahət günləri istisna olmaqla) saat 10:00-dan 17:00-dək yaşayış yeri üzrə daimi qeydiyyatda olduqları yuxarıda adları göstərilən şəhər, rayon polis orqanlarına müraciət edərək aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

- ***şəxsiyyət vəsiqəsi***
- ***təhsil haqqında sənəd***
- ***hərbi bilet***
- ***əmək kitabçası (olanlar üçün)***

Həmin vəzifələrdə əmək funksiyalarının spesifikliyini, yüksək fiziki və psixoloji gərginliklə bağlı olması, eləcə də xidmətin növbəli, bir çox hallarda əsas iş vaxtından əlavə müddətdə aparılacağı baxımından müsabiqə iştirakçılarının sağlamlıq vəziyyəti, biliyi, fiziki hazırlıq səviyyəsi müəyyən olunmuş qaydada yoxlanılacaq.

Kompyuter avadanlıqları ilə işləmək qabiliyyətinə malik, xarici dillərdən birini sərbəst bilən və emosional dayanıqlı vətəndaşlara üstünlük veriləcək.

Əlavə məlumat almaq üçün əlaqə telefonları: **(012)-590-97-52; (012)-590-93-27; (012)-590-93-45.**

**Daxili İşlər Nazirliyi**

## DAXİLİ İŞLƏR ORQANLARI ƏMƏKDAŞLARININ NƏZƏRİNƏ!

## AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ RƏHBƏR VƏZİFƏLƏR ÜZRƏ KADR EHTİYATININ YARADILMASI ÜÇÜN POLİS AKADEMİYASININ «DAXİLİ İŞLƏR ORQANLARINDA İDARƏETMƏNİN TƏŞKİLİ VƏ İXTİSASARTIRMA» FAKÜLTƏSİNİN "DAXİLİ İŞLƏR ORQANLARINDA İDARƏETMƏNİN TƏŞKİLİ" TƏDRİS KURSUNA 2018/2019-CU TƏDRİS İLİNDƏ DİNLƏYİCİLƏRİN QƏBULUNA DAİR MÜSABİQƏ ELAN EDİR:

Polis Akademiyasının «Daxili işlər orqanlarında idarəetmənin təşkili və ixtisasartırma» fakültəsinin "Daxili işlər orqanlarında idarəetmənin təşkili" tədris kursuna qəbul üçün müsabiqədə – ali hüquq təhsilinə və daxili işlər orqanlarında orta və böyük rəis heyəti vəzifələrində 5 il və daha artıq xidmət stajına malik, böyük rəis heyəti vəzifələrinin 3-cü və daha yuxarı təsnifat vəzifələrində xidmət edən, fiziki cəhətdən sağlam və hazırlıqlı, qüvvədə intizam tənbehi olmayan 40 yaşınadək əməkdaş iyul ayının 14-dən 31-dək birbaşa rəisləri vasitəsilə Azərbaycan Respublikasının daxili işlər nazirinə raportla müraciət etməklə iştirak edə bilər.

Əməkdaşların tədris kursuna qəbul edilməsi Azərbaycan Respublikası daxili işlər nazirinin sədrlik etdiyi Müsahibə Komissiyası tərəfindən həyata keçirilir.

Müsahibə daxili işlər orqanlarının, əməkdaşın xidmət etdiyi struktur qurumun fəaliyyətini tənzimləyən qanunvericiliyin və digər normativ hüquqi aktların tələbləri üzrə keçirilir.

Tədris kursuna qəbul olunanlar Akademiya rəisinin əmri ilə dinləyici qismində dəyişən heyətin sıralarına daxil edilməklə onların əmlak və maliyyə təminatı tutduğu vəzifə üçün müəyyən olunmuş normalar həcmində saxlanılır.

Təhsil müddətində dinləyicilər tutduğu vəzifə üçün müəyyən olunmuş həddə növbəti xüsusi rütbəyə nomenklatura aidiyyəti üzrə təqdim olunur, həmçinin Akademiya rəisinin səlahiyyətləri ilə mükafatlandırıla və ya intizam məsuliyyətinə cəlb edilə bilərlər.

Fakültədə təhsil müddəti əyani olmaqla 1 tədris ili müəyyən olunmuşdur. Akademiya tərəfindən tədris kursunu müvəffəqiyyətlə başa vurmuş dinləyicilərin siyahısı ehtiyat kadr siyahısına daxil edilməsi üçün Baş Kadrlar İdarəsinə göndərilir, onlara müəyyən olunmuş nümunədə şəhadətnamə verilir, hər biri xidmətini davam etdirmək üçün əvvəlki iş yerinə ezam olunur.

Qəbul qaydaları DİN-in 5 dekabr 2017-cü il tarixli Q50-001-17 №-li Qərarı ilə təsdiq edilmişdir. Namizədlərin tədris işləri həmin qaydalara uyğun tərtib edilməklə avqust ayının 4-dək Baş Kadrlar İdarəsinə təqdim olunmalıdır.

Daha ətraflı məlumatı nazirliyin Baş Kadrlar İdarəsinin Təhsil-təlim, ixtisasartırma şöbəsindən **17-76, 19-74 (daxili), 590-97-76, 590-99-74** nömrəli əlaqə telefonları vasitəsi ilə almaq olar.

***Baş Kadrlar İdarəsi***

# MARAQ DÜNYASI



### *BƏNÖVŞƏYİ RƏNGİN SİRRİ*

Dünyada mövcud olan 195 ölkənin heç birinin dövlət bayrağında bənövşəyi rəng yoxdur. Bunun səbəbi isə vaxtilə bənövşəyi rəngli boyanın böyük zəhmət hesabına əldə edilməsi və baha başa gəlməsi olub. Bu rəngdən hazırlanan boyalardan yalnız kral ailələrinin geyimlərində istifadə olunub.

İlk dəfə bu rəngdən Suriya və Livanın dəniz sahillərində yaşamış finikiyalılar istifadə ediblər. Təkcə bu bölgədə olan dəniz ilbizindən alınan bənövşəyi rəngli boyalar hər zaman öz bahalılığı ilə seçilib. Livan ərazisində yerləşən Sur antik şəhərindəki ustalar bu boyanın bir qramını əldə etmək üçün on minlərlə ilbizdən istifadə ediblər. Gözoxşayan və bahalı rəng isə tarixboyu krallıq və imperiyaların rəmzinə çevrilib. Vaxtilə "Finikiya rəngi" kimi tanınan bənövşəyi rəngdən alınan boya parçanın üzərində uzun müddət parlaqlığını qoruması və günəş işığında cazibədarlığı ilə zəngin insanlar arasında populyar olub. Bu rəng Roma, Bizans və Fars imperatorluqları ilə yanaşı, İngiltərə kral ailəsinin də sevimlisinə çevrilib. Kraliça I Elizabet isə özü və ailə üzvləri istisna olmaqla, heç kimə bənövşəyi rəngdə paltar geyinməyə icazə verməyib. Onun hakimiyyəti dövründə (1533-1603) bu rəngdə boyanın yarım kiloqramı 1,5 kiloqram qızıla bərabər olub.

Çox bahalı olan bənövşəyi rəngli boyadan hər kəsin istifadə etməsi XIX əsrdə ingilis kimyaçısı Uilyam Henri Perkinin kəşfi sayəsində mümkün olub. Alimin Londonda laboratoriyada sarılıq xəstəliyinə qarşı dərman tapılması üzrə tədqiqatı zamanı səhvən sintetik bənövşəyi piqment üzə çıxıb.

Bənövşəyi rəngli boyanın bahalı olduğunu bilən Perkin qısa müddətdə fabrik yaradıb və kütləvi istehsala başlayıb. Bu kəşfdən sonra bənövşəyi rəng də ucuz və adi boyalardan birinə çevrilib.

### *ƏN İNTİZAMLI ƏSGƏR*



II Dünya müharibəsi başa çatdıqdan 27 il sonra Quam adasında qamışlıqda gizlənmiş və hələ də komandirinin əmrini gözləyən yapon əsgəri tapılıb.

1944-cü ilin iyulunda ABŞ və Yaponiya qoşunları arasında amansız döyüşlər zamanı yapon ordusunun əsgəri Şoiçi Yokoi cəngəllikdəki qamışlıqda qazdığı mağarada gizlənib. Çoxlu itkilər verən yapon ordusu adanı tərk etdikdən sonra amerikan əsgərləri gizlənən düşmən hərbçilərini əsir götürüblər. Onların cəngəlliyi axtardığı vaxt Soiçi Yokoi gizləndiyi mağaranı bambuk ağacı ilə örtüb və 27 il çayın kənarındakı bu sığınacaqda komandirinin əmrini gözləyib.

1972-ci ildə çayda balıq tutduğu zaman amerikalı ovçulara rast gələn yapon əsgəri qaçmağa başlayıb və qarşıdakı polis məntəqəsində onu həbs etmək istəyən silahlı qanun keşikçilərinə müqavimət göstərib.

Amerikan polisi tərəfindən həbs olunduğu zaman əsir düşmək istəmədiyi üçün öldürülməsini xahiş edən Yokoi tezliklə Yaponiyaya göndərilib və burada qəhrəman kimi qarşılanıb. Yapon əsgəri onu qarşılayan həmvətənlərinə deyib: "Mən sağ qayıtdığım üçün utanıram".

İntizamlı əsgər yaponlar üçün qəhrəmanlıq, şərəf və imperatora sədaqət rəmzinə çevrilib. 1972-ci ildə Yaponiya İmperatorunun qəbulunda olan Yokoi deyib: "Mən sizə lazımınca xidmət edə bilmədiyim üçün dərin təəssüf hissi keçirirəm. Artıq dünya çox dəyişib, amma mənim sizə xidmət etmək niyyətim heç bir zaman dəyişməyəcək".

Həyatının qalan hissəsini rifah içərisində keçirən intizamlı əsgər 1997-ci ildə-82 yaşında dünyasını dəyişib.

*Ş.Çingiz*

# QANUNSUZ DÖVRİYYƏDƏN ÇIXARILIB...

**Respublikanın daxili işlər orqanları ümumən cinayətkarlığa, o cümlədən narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və kultivasiyası yolu ilə yetişdirilən narkotik tərkibli bitkilərin aşkar edilməsi istiqamətində tədbirlərini qətiyyətlə davam etdirirlər.**



Cari ilin birinci yarısında daxili işlər orqanları əməkdaşlarının bu istiqamətdə həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərin qanunsuz dövriyyəsi ilə əlaqədar 1708, o cümlədən satışı ilə bağlı 525, narkotik xassəli bitkilərin qanunsuz kultivasiyası ilə bağlı 118 fakt müəyyən edilib.

Faktlar üzrə 734,4 kiloqram narkotik vasitə, o cümlədən 483,4 kiloqram marixuana, 157,9 kiloqram tiryək, 70,1 kiloqram heroin, 8,3 kiloqram həşiş, 14,6 kiloqram digər güclü təsiredici xüsusiyyətə malik narkotik vasitə, 1 ton 126 kiloqram narkotik tərkibli çətənə, 6,4 kiloqram xaş-xaş bitkiləri götürülərək qanunsuz dövriyyədən çıxarılıb.

Həmçinin 2,2 kiloqram güclü təsiredici xüsusiyyətə malik, 1,4 kiloqram zəhərli və 334,5 qram psixotrop maddə aşkar edilərək götürülüb.

Xüsusi plan əsasında cari ilin may ayında başlanılmış tədbirlərlə qanunsuz kultivasiya edilən və yabanı halda bitən 78,8 ton çətənə və xaş-xaş kolu aşkar edilərək məhv edilib.

Qeyd edək ki, qanunsuz dövriyyədən çıxarılan narkotik vasitələrin çəkisi ötən ilin müvafiq dövrü ilə müqayisədə 131 kiloqram çoxdur.

Bu istiqamətdə tədbirlər qətiyyətlə davam etdirilir.

*C.Natiq*




**OXUCULARIMIZIN NƏZƏRİNƏ: "Mübariz keşikdə"nin internet saytı (www.mk.mia.gov.az) da xidmətinizdə, dünyanın harasında olursanız-olun, yanınızdadır...**

# Xəzri sizi gözləyir!




**Daxili İşlər Nazirliyinə bilavasitə tabe olan "Xəzri" İstirahət və Sağlamlıq Mərkəzində standart otaq üçün bir günlük xərcin 1 iyun 2018-ci il tarixdən 15 sentyabr 2018-ci il tarixədək mövsüm üzrə qiymətləri**
**(daxili işlər orqanlarının əməkdaşı üçün 14 gün müddətinə olan yollayışda nəzərdə tutulmuş güzəştlərlə)**

**Qeyd: 1.** "Azərbaycan Respublikası daxili işlər orqanlarında xidmət keçmə haqqında" Əsasnamənin 99-cu bəndinə əsasən, daxili işlər orqanları əməkdaşlarına hər il yollayışın qiymətinin 75 faizi miqdarında, ailə üzvlərinə isə 50 faizi miqdarında imtiyaz verilir. Yollayışlar 14 gün müddətinə ildə bir dəfə verilir və yalnız standart otaqlara aiddir. Bu imtiyaz iki bərabər hissəyə (hər biri 7 gün müddətində) bölünmək şərtilə verilə bilər.

**2.** Bir günlük xərc tək polis əməkdaşı üçün 28.75 manat (iki nəfərlik nömrəni tək tutduqda 42.50 manat), standart 2 nəfərlik otaqda özü və 1 nəfər ailə üzvü üçün 86,36 manat, özü və 5-12 yaşadək bir uşaq (dolu otaqda əlavə yer verilmək şərti ilə) üçün 72,50 manat, iki nəfər ailə üzvü üçün (özü olmadan) 115 manat və onlarla birgə 5-12 yaşadək uşağa əlavə yer verildikdə 145 manat təşkil edir.

**3.** Üç yaşdan aşağı uşaqlar Mərkəzə qəbul edilmir.

**4**. 3-5 yaşda uşaqların qalması ödənişsizdir.

**5.** Qiymətlərə pulsuz 3 dəfə yemək, Wi-Fi şəbəkəsi, SPA girişi (qapalı hovuz, hamam, sauna), çimərlikdən, açıq hovuzdan, trenajorlardan, akvaparkdan, mini-futbol, voleybol və uşaq meydançalarından istifadə daxildir. Digər bütün xidmətlər ödənişlidir.

Ünvan: Bakı şəhəri, Zuğulba qəsəbəsi, Rasim İmanov küçəsi, 40. Mərkəzə "Koroğlu" metrostansiyasından 171 nömrəli avtobus gəlir.

**Telefon: (+99412) 554-47-60;**
**Mobil telefon: (+99450) 291-15-51; (+99455) 291-15-51**
**Faks: (+99412) 453-63-33;**
**Poçt indeksi: AZ1090**
**E-poçt: info@khazribaku.az**
**Veb-sayt: www.khazri.mia.gov.az**

| 1 iyun 2018-ci il - 15 sentyabr 2018-ci il (2 nəfərlik standart otağın qiyməti: iki nəfər qaldıqda 230 manat, bir nəfər tək qaldıqda 170 manat) | | |
|---|---|---|
| | 2 nəfərlik nömrədə iki istirahətçi qaldıqda 1 nəfər üçün | 2 nəfərlik nömrədə bir istirahətçi tək qaldıqda |
| Yollayışla gələn polis əməkdaşı (75% güzəştlə) | 28,75 | 42,50 |
| Onun ailə üzvü (50% güzəştlə) | 57,50 | 85,00 |
| Polis əməkdaşı ilə birgə 5-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (50% güzəştlə) | 30 | |
| Kənar şəxslər (güzəştsiz qiymət) | 115 | 170 |
| Valideyni ilə birgə 5-12 yaşadək hər bir uşağa yalnız dolu otaqda əlavə yer verildikdə (güzəştsiz qiymət) | 60 | |

# DÜNYAYA PƏNCƏRƏ

İyulun 12-də Avstriyanın İnnsbruk şəhərində Avropa İttifaqı ölkələri daxili işlər və ədliyyə nazirlərinin toplantısı keçirilib. Toplantıda əsas müzakirə mövzusu Avropanın xarici sərhədlərinin qorunması, qaçqın və miqrasiya problemləri olub.

Nazirlərin toplantısında Avropa İttifaqı sərhəd mühafizəsi agentliyinin (FRONTEX) səlahiyyətlərinin gücləndirilməsi, müvafiq mandat və büdcə ilə təmin edilməsi barədə razılıq əldə edilib.

Avropa İttifaqının daxili işlər üzrə komissarı Dimitris Avramopoulus qeyd edib ki, 2020-ci ilədək Aİ sərhəd polisi 10 min əməkdaşı əhatə edən ayrıca bir quruma çevriləcək. Eyni zamanda qaçqınların mənşə və tranzit ölkələrində də qaçqın axınını dayandırmaq üçün müvafiq layihələrin həyata keçirilməsi nəzərdə tutulur.

*****

*Beynəlxalq Polis Təşkilatı - İnterpol turizm sezonu boyunca səfər yoxlanışları və potensial terrorçuların müəyyən edilməsində yerli icra orqanlarına yardım etmək üçün Aralıq dənizinin 8 limanına əməkdaşlar göndərib. "Neptun" adını alan əməliyyat Dünya Gömrük Təşkilatı və AB Sərhəd mühafizəsi agentliyinin dəstəyi ilə aparılır. Əməliyyatda Əlcəzair, Fransa, İspaniya, İtaliya, Tunis və Mərakeş kimi ölkələr yer alır.*

*****

Qəza baş verir və onlarla sürücü avtomobili saxlayaraq hadisəni lentə almağa başlayırlar. Bu da bəzi hallarda həmin yolda böyük tıxaca səbəb olmaqla yanaşı təcili yardım avtomobillərinin hadisə yerinə tez çatmasına da maneə olur. Bir sıra ölkələrdə artıq polis bunun qarşısını almaq üçün hərəkətə keçib.

Artıq bu kimi halın yaşanmaması üçün bir sıra ölkələrdə qanun şərtləşdirilir. Əbu-Dabi polisi yol qəzalarına tamaşa etməyi xoşlayan sürücülər üçün yeni cərimə təsbiq edib. Bundan sonra, nəqliyyat axınını ləngidən sürücülər polis tərəfindən müəyyən edilərək 1000 dirhəm, yəni 273 ABŞ dolları məbləğində cərimə ödəməli olacaqlar.

*****

***Kolumbiyada cinayətkar qruplaşma ABŞ-dan Avropaya göndəriləcək 100 kiloqramlıq kokaini tapan "Sombra"nın başına 200 milyon Kolumbiya pesosu (70 min ABŞ dolları) mükafat qoyub.***

***Hadisə ilə əlaqədar Narkotiklərə qarşı mübarizə İdarəsi itin xidmət yerini dəyişdirib. "Sombra" bundan sonra paytaxt Boqotadakı "El Dorado" hava limanında xidmət aparacaq.***

***Qeyd edək ki, Prezident Juan Manuel Santos Calderonun ölkədəki qruplaşma üzvlərini təslim olacağı təqdirdə işlərinin yüngülləşdiriləcəyi haqda qərarından sonra bu qrupun bir hissəsi təslim olub.***

*N.Cavadov*

# HİKMƏT XƏZİNƏSİNDƏN

Adamlar içində nəsihət məzəmmətə bərabərdir.

***

Məsləhəti böyüklə də elə, kiçiklə də, amma qənaətə öz ağlınla gəl.

*Atalar sözü*

***

Dəmir işləməyəndə paslanır, su bir yerdə qalanda iylənir, insan ağlı tətbiq edilmədikdə kütləşir.

*Leonardo da Vinçi*

***

Ağıllı olmaq istəyirsənsə, ağıllı sual verməyi, diqqətlə dinləməyi, sakit cavab verməyi və sözün qurtaranda susmağı öyrən.

*Y.K.Lafater*

***

Nitqin ən böyük ləyaqəti yalnız deyilməsi lazım gələn fikri demək deyil, həm də deyilməsi lazım gəlməyən şeyi deməməkdir.

*Siseron*

***

Yalnız ölməzlər kimi yaşayanlar böyük işlər qoyub gedə bilərlər.

*Şamfor*

***

Ağıllı adam baş vermiş bədbəxt hadisənin labüdlüyünü anlayıb təsəlli tapar, ağılsız isə bu bədbəxtliyin başqalarının da başına gələ biləcəyini düşünüb təsəlli tapar.

*Əbül Fərəc*

*Çapa hazırladı:A.Tahirova*

# İyulun 18-dən 24-dək olan müddət ərzində...

- Respublikanın daxili işlər orqanları tərəfindən 746 cinayət qeydə alınmış, onların 140-ı «isti izlər»lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 48 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 169 nəfər, o cümlədən mülki-hüquqi öhdəliklərin icrasından yayındığına görə 2 nəfər, borclu şəxs qismində axtarışda olan 110 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 27 yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 12 nəfər ölmüş, 56 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 59 fakt müəyyən edilmişdir.
- Cinayət törətməkdə şübhəli bilinən 194 nəfər saxlanılmışdır.

Əlahiddə Çevik Polis Alayının komandiri Zaur Abdullayev və şəxsi heyəti DİN Maliyyə-Plan İdarəsinin rəisi Səxavəddin Abdullayevə anası
**LALƏ xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Nəqliyyatda Baş Polis İdarəsinin rəisi Emin Şəkinski və şəxsi heyəti Səxavəddin Abdullayevə anası
**LALƏ xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş Kadrlar İdarəsinin rəisi Rafiq Abbasov və şəxsi heyəti Səxavəddin Abdullayevə anası
**LALƏ xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Baş Əməliyyat və Statistik İnformasiya İdarəsinin rəisi Elşən Kazımov və şəxsi heyəti Səfərbərlik İşləri və Mülki Müdafiə Şöbəsinin rəisi
**YUSİF MEHDİYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

İnterpolun Milli Mərkəzi Bürosunun rəisi Mehman Təhməzov və şəxsi heyəti
**YUSİF MEHDİYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

DİN Veteranlar Şurasının sədri Fərhad Süleymanov və Şuranın üzvləri Səxavəddin Abdullayevə anası
**LALƏ xanımın**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Kriminalistik Tədqiqatlar İdarəsinin rəisi Gündüz Sadıxov və şəxsi heyəti iş yoldaşları Cövdət Əmrahova atası
**SABİR müəllimin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİN İdman Cəmiyyətinin sədri Zemfira Meftaxetdinova və şəxsi heyəti
**YUSİF MEHDİYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

DİN 1 nömrəli Poliklinikasının rəisi Səadət Həsənova və şəxsi heyəti
**YUSİF MEHDİYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Gəncə ŞBPİ-nin rəisi Faiq Şabanov və şəxsi heyəti
**YUSİF MEHDİYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Sumqayıt ŞPİ-nin rəisi Əkbər İsmayılov və şəxsi heyəti Səxavəddin Abdullayevə anası
**LALƏ xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Səfərbərlik İşləri və Mülki Müdafiə Şöbəsinin şəxsi heyəti Şöbə rəisi
**YUSİF MEHDİYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Suraxanı RPİ-nin rəisi Namiq Həsənov və şəxsi heyəti
**YUSİF MEHDİYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Nizami RPİ-nin rəisi Ədalət Abbasov və şəxsi heyəti rəis müavini Müşviq Aslanova anası
**MARİYA xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Lənkəran ŞRPŞ-nin rəisi İslam Hümbətov və şəxsi heyəti
**YUSİF MEHDİYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Xaçmaz RPŞ-nin rəisi Nofəl Məhərrəmov və şəxsi heyəti
**YUSİF MEHDİYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Mingəçevir ŞPŞ-nin rəisi Cavid Muradov və şəxsi heyəti Səxavəddin Abdullayevə anası
**LALƏ xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Cəlilabad RPŞ-nin rəisi Mübariz Quliyev və şəxsi heyəti Səxavəddin Abdullayevə anası
**LALƏ xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Goranboy RPŞ-nin rəisi Fəqan Azadəliyev və şəxsi heyəti
**YUSİF MEHDİYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Şəki ŞRPŞ-nin rəisi Əbülfət Rzayev və şəxsi heyəti
**YUSİF MEHDİYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Bərdə RPŞ-nin rəisi İlqar Məmmədov və şəxsi heyəti
**YUSİF MEHDİYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Zaqatala RPŞ-nin rəisi Adil Ələkbərov və şəxsi heyəti Səxavəddin Abdullayevə anası
**LALƏ xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BNMİ Cənub Bölgəsində Regional Şöbəsinin rəisi İzzət Əsgərov və şəxsi heyəti Səxavəddin Abdullayevə anası
**LALƏ xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Göyçay RPŞ-nin rəisi Sənan Əsədov və şəxsi heyəti Səxavəddin Abdullayevə anası
**LALƏ xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Masallı RPŞ-nin rəisi Habil Əmiraslanov və şəxsi heyəti
**YUSİF MEHDİYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Tərtər RPŞ-nin rəisi Rauf Məcidov və şəxsi heyəti
**YUSİF MEHDİYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Biləsuvar RPŞ-nin rəisi Əlyəddin Səfərov və şəxsi heyəti
**YUSİF MEHDİYEVİN**
vaxtsız vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Ağstafa RPŞ-nin rəisi Elsevər Aslanov və şəxsi heyəti Səxavəddin Abdullayevə anası
**LALƏ xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Göygöl RPŞ-nin rəisi Mirnemət Mirbabayev və şəxsi heyəti Səxavəddin Abdullayevə anası
**LALƏ xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Kəlbəcər RPŞ-nin rəisi Haxverdi Əkbərov və şəxsi heyəti Səxavəddin Abdullayevə anası
**LALƏ xanımın**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

MÜBARİZ KEŞİKDƏ qəzetinin Kompyuter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
Redaktor CAVİD XASPOLADOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 10082
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 16:00